AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI

Bakı şəhəri **№390/1** **16 oktyabr 2026-cı il**

Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyi ilə əlaqədar keçirilmiş yubiley tədbiri və beynəlxalq elmi-praktik konfrans barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 10.3.9-cu "Auditorlar Palatasının 30 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın keçirilməsi" bəndinin, Auditorlar Palatası sədrinin "Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinin qeyd edilməsi barədə" 2025-ci il 26 avqust tarixli 10-1/3-3-25/2025 nömrəli Sərəncamının və Auditorlar Palatası sədrinin 2026-cı il 18 sentyabr tarixli 10-1/3-3-34/2026 nömrəli Sərəncamın icrası vəziyyəti və Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyi ilə əlaqədar keçirilmiş yubiley tədbirlərinin nəticələrinə dair Palatanın icraçı direktoru S.Gülməmmədov tərəfindən hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyi ilə əlaqədar yüksək səviyyədə keçirilmiş yubiley tədbirləri və beynəlxalq elmi-praktik konfrans barədə hazırlanmış hesabat bəyənilsin (əlavə olunur).
2. Auditorlar Palatasının 30 illik yubileyi münasibətilə auditor fəaliyyətinin inkişafına verdikləri töhfələrə görə Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikası Auditorlar Palatası üzvlərinin və əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında" 2026-cı il 16 sentyabr tarixli Sərəncamı və "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına ünvanladığı 2026-cı il 16 sentyabr tarixli təbrik məktubu Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan auditinə göstərdiyi diqqət və qayğının təzahürü kimi qiymətləndirilsin.
3. Auditorlar Palatasının rəhbərliyinə və struktur bölmələrinə tapşırılsın ki, Palata sədrinin "2026-cı ilin 16 sentyabr tarixində keçirilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinə həsr edilmiş tədbirin və «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın yekunlarına dair" 2026-cı il 18 sentyabr tarixli 10-1/3-3-34/2026 nömrəli sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etsinlər.
4. Məsul icraçılara (S.Gülməmmədov, F.Qarayev, Q.Əhmədov) tapşırılsın ki, 2026-cı il dekabr ayının III ongünlüyündə Palatanın əməkdaşlarına və üzvlərinə dövlət təltiflərinin, təşəkkürnamələrin və digər təltiflərin müvafiq şəxslərin iştirakı ilə təqdim edilməsini təmin etsinlər.
5. Məsul icraçılara (Q.Əhmədov, Ş.Əsgərova) tapşırılsın ki, bir ay müddətində konfransa təqdim olunmuş məruzə və tezislərdəki təklifləri təhlil etsinlər və həmin təkliflərin həyata keçirilməsinə dair tövsiyələrlə birlikdə konfrans materiallarının nəşrini təmin etsinlər.
6. Auditin transformasiyası və operativ tənzimləmə idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, bir həftə müddətində bu qərarın və hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

Şuranın sədri **Vahid Novruzov**